UOT32
https://doi.org/10.30546/ifs.2026.2.47.1209

MÜHARİBƏ KATEQORİYASININ ELMİ ƏDƏBİYYATLARDA TƏKAMÜLÜ: NYUTON FİZİKASI VƏ YA “MEXANİKA DÜNYAGÖRÜŞÜ” PRİZMASINDAN “XAOS NƏZƏRİYYƏSİNƏ”

Fuad Çıraqov
dissertant, Milli Müdafiə Universiteti, **Azərbaycan**
chiragovfuad@gmail.com
https://orcid.org/0009–0008- 2658–8842

Xülasə. Bu tədqiqat işində bəşər tarixinin ayrılmaz tərkib hissəsi olan “müharibə” anlayışının tarixi, mədəni və elmi-nəzəri təkamülü təhlil edilir. Məqalədə Qərb və Şərq hərbi intellektual düşüncəsindəki konseptual fərqliliklər, xüsusilə Sun Dzı və Karl fon Klauzevitsin fundamental yanaşmaları qarşılaşdırılır. Tədqiqatın əsas elmi yeniliyi, ənənəvi hərb elminin XVIII əsrdən etibarən deterministik və xətti xüsusiyyətlərə malik “Nyuton fizikası” (mexanika dünyagörüşü) paradiqmasına əsaslandığını və müasir mürəkkəb münaqişələri izah etməkdə bu paradiqmanın artıq reduksionist və qeyri-kafi qaldığını əsaslandırmasıdır. Müəllif Stiven Mannın yanaşmalarına istinad edərək, müasir qeyri-xətti beynəlxalq sistemdə müharibələrin Xaos nəzəriyyəsi çərçivəsində öyrənilməsinin zəruriliyini, ideologiyaların və “münaqişə enerjisinin” fərdlər səviyyəsində necə silaha çevrildiyini (“bioloji müharibə”) şərh edir. Eyni zamanda, məqalədə F.G.Hoffman, M.Qaleotti və O.Fridmanın əsərləri işığında hibrid müharibə, kinetik və qeyri-kinetik mübarizə üsulları, habelə bu anlayışların siyasiləşdirilməsi və NATO çərçivəsində vahid tərif axtarışları tənqidi süzgəcdən keçirilir. Tədqiqatda nəzəri tapıntılar kontekstində Azərbaycan Respublikasının Milli təhlükəsizlik haqqında qanunvericiliyi və Hərbi doktrinası təhlil edilir; sənədlərdə “döyüş meydanı” anlayışının “vahid informasiya məkanı” ilə əvəzlənməsi və milli təhlükəsizliyin obyektləri kimi fiziki ölçülərlə yanaşı, mənəvi dəyərlərin, insan hüquq və azadlıqlarının qorunmasına verilən xüsusi önəm əsaslandırılır.

Açar sözlər: müharibə anlayışı, Nyuton fizikası, mexanika dünyagörüşü, xaos nəzəriyyəsi, hibrid müharibə, kinetik və qeyri-kinetik mübarizə, Azərbaycan Respublikasının hərbi doktrinası, milli təhlükəsizlik obyektləri.

EVOLUTİON OF THE CONCEPT OF WAR İN SCİENTİFİC LİTERATURE: FROM THE PRİSM OF NEWTONİAN PHYSİCS AND THE 'MECHANİCAL WORLDVİEW' TO 'CHAOS THEORY'

Fuad Chiragov

Abstract. This study analyzes the historical, cultural, scientific and theoretical evolution of the concept of "war," which remains an inseparable part of human history. The article contrasts the conceptual differences between Western and Eastern military intellectual traditions, specifically focusing on the fundamental perspectives of Sun Tzu and Carl von Clausewitz. The core theoretical contribution of the research lies in demonstrating how traditional military science, since the 18th century, has relied on the deterministic and linear paradigm of "Newtonian physics" (the mechanical worldview), which has become reductionist and insufficient for explaining modern complex conflicts. Drawing upon Steven Mann’s insights, the study highlights the necessity of evaluating wars through the lens of Chaos Theory within the contemporary non-linear international system, examining how ideologies and "conflict energy" can be weaponized at the individual level within the context of "biological warfare". Furthermore, in light of the scholarship of F.G. Hoffman, M. Galeotti, and O. Fridman, the paper critically examines hybrid warfare, kinetic versus non-kinetic methods, the weaponization of these concepts in political discourse, and NATO's institutional search for a unified definition. Based on these theoretical findings, the study analyzes the Military Doctrine and the Law on National Security of the Republic of Azerbaijan, illustrating how the traditional concept of the battlefield has been legally replaced by the concept of a unified information space, and how non-physical dimensions—such as moral values, human rights, and freedoms—are recognized as core objects of national security.

Keywords: concept of war, Newtonian physics, mechanical worldview, chaos theory, hybrid warfare, kinetic and non-kinetic struggle, military doctrine of the Republic of Azerbaijan, national security objects.

ЭВОЛЮЦИЯ КАТЕГОРИИ ВОЙНЫ В НАУЧНОЙ ЛИТЕРАТУРЕ: ОТ ПРИЗМЫ НЬЮТОНОВСКОЙ ФИЗИКИ ИЛИ «МЕХАНИСТИЧЕСКОГО МИРОВОЗЗРЕНИЯ» К «ТЕОРИИ ХАОСА»

Фуад Чирагов

Резюме. В данном исследовании анализируется историческая, культурная и научно-теоретическая эволюция концепции «войны», которая остается неотъемлемой частью истории человечества. В статье сопоставляются концептуальные различия между западной и восточной военно-интеллектуальными традициями, особое внимание уделяется фундаментальным взглядам Сунь-Цзы и Карла фон Клаузевица. Основной теоретический вклад исследования заключается в демонстрации того, как традиционная военная наука, начиная с XVIII века, опиралась на детерминистическую и линейную парадигму «ньютоновской физики» (механистическое мировоззрение), которая стала редукционистской и недостаточной для объяснения современных сложных конфликтов. Опираясь на идеи Стивена Манна, исследование подчеркивает необходимость оценки войн через призму теории хаоса в рамках современной нелинейной международной системы, рассматривая, как идеологии и «энергия конфликта» используются в качестве оружия на индивидуальном уровне («биологическая война»). Кроме того, в свете научных работ Ф.Г. Хоффмана, М. Галеотти и О. Фридмана критически рассматриваются гибридная война, кинетические и некинетические методы, использование этих концепций в качестве оружия в политическом дискурсе, а также институциональные поиски НАТО единого определения. В рамках этих теоретических выводов исследование анализирует Военную доктрину и Закон о национальной безопасности Азербайджанской Республики, показывая, как классическая концепция «поля боя» юридически заменяется «единым информационным пространством», и как нефизические измерения — такие как моральные ценности, права человека и свободы — определяются как основные объекты национальной безопасности.

Ключевые слова: понятие войны, ньютоновская физика, механистическое мировоззрение, теория хаоса, гибридная война, кинетическая и некинетическая борьба, военная доктрина Азербайджанской Республики, объекты национальной безопасности

Giriş

Müharibələr dünya tarixinin ibtidai icma quruluşundan başlayaraq müasir dövrümüzə qədər olan ayrılmaz hissəsidir. Əslində, bəşər tarixini müharibələrin tarixi də adlandırmaq olar. Eyni zamanda müharibələr və onların tarixi müxtəlif – fəlsəfə, tarix, beynəlxalq münasibətlər, sosiologiya və iqtisadiyyat kimi sosial elmlərin öyrənmə predmeti olsa da, “müharibə nədir” sualına cavab olaraq aydın konseptual sərhədləri və müəyyənedici xüsusiyyətləri olan sabit kateqoriya kimi ona hamı tərəfindən qəbul edilən ümumi və ya universal tərif verilməmişdir (1) (2). 2011-ci ildə Kembric Universitetində nəşr edilən “Müharibə, təcavüz və özünümüdafiə” adlı kitabında diqqəti bu problemə çəkən professor Yoram Dinşteyn göstərirdi ki, elmi tədqiqatlarda aydınlıq üçün müharibənin analitik kateqoriyasını onun ümumi ritorik istifadələrindən və ya hüquqi tərifl ərindən ciddi şəkildə fərqləndirmək tələb edilir (3). Müharibələrə və münaqişələrə həsr edilən digər fundamental elmi-tədqiqatlar da göstərirlər ki, müharibə tədqiqatı siyasi elmin, xüsusilə də beynəlxalq münasibətlər (BM) və münaqişə araşdırmalarının əsas sütunlarından biri olsa da, “müharibə” anlayışı nə monolitdir, nə də hamılıqla qəbul edilmiş vahid bir tərifə malikdir (4) (5) (6).

1993-cü ildə nüfuzlu “Amerika siyasi elmlər icmalı” jurnalında çap edilən “Konseptual "genişləndirilməyə" yenidən baxış: müqayisəli təhlildə kateqoriyaların uyğunlaşdırılması” adlı məqalənin müəllifləri professor Koliyer və professor Mahon göstərirdilər ki, aydın sərhədləri və müəyyənedici xüsusiyyətləri olan sabit anlayışlar və kateqoriyaların hamı tərəfindən qəbul edilən ümumi tərifləri istənilən tədqiqatın və ümumilikdə elmin bünövrəsi sayılır. Bununla belə, kateqoriyalar və anlayışlar haqqında sosial elmlərdə qeyri-müəyyənlik, çaşqınlıq və mübahisələr çox yayılmışdır (7).

Fraqmentləşən təriflər

Siyasi və humanitar elmlərin təbiət elmləri kimi universal kateqoriyalardan məhrum olması onun fraqmentləşməsi (fragmentation of political science) kimi xarakterizə edilir və bu fraqmentləşmənin səbəbi kimi müxtəlif güc mərkəzləri və sivilizasiyaların həyat, onun mənası və siyasət haqqında fərqli intellektual ənənələri və mədəniyyətləri göstərilir (8) (9) (10) (11). Bu fərqlər də öz növbəsində ilk baxışda müharibə kimi universal məna daşıdığını güman etdiyimiz sözlər, anlayışlar və qavrayışlar haqqında qeyri-müəyyənlik və çaşqınlıq yaradır. Belə ki, müasir Qərb intellektual düşüncəsi müharibəyə daha çox kinetik və maddi terminlərlə tərif verirsə, digər mədəniyyətlər mənəvi və qeyri-maddi ölçüləri də əhatə edir (12) (13). XX əsrin ən böyük hərbi nəzəriyyə tarixçilərindən biri və “Müharibə ustaları: Sun Dzı, Klauzevits və Jomini” kimi fundamental əsərin müəllifi Maykl Handel müharibəyə Şərqin və Qərbin nəzəri yanaşmalarını qarşılaşdıraraq göstərirdi ki, məşhur Çin hərbi nəzəriyyəçisi və strateqi Sun Dzı “Müharibə sənəti” əsərində diqqəti aldatma, çevik qərarlarla və döyüşdən qaçmaqla tez qələbələr əldə etməyin əhəmiyyətinə çəkir, Prussiya hərbi nəzəriyyəçisi Karl fon Klauzevits isə “Müharibə haqqında” traktatında düşmənin birbaşa və hərbi güc vasitəsilə məhv edilməsinin və müharibənin siyasi alət kimi başa düşülməsinin əhəmiyyətini vurğulayır (14). Öz növbəsində qeyd edək ki, İslam və Şərq keçmişimizə baxmayaraq, son iki yüz il ərzində xalqımızın keçdiyi tarixi inkişaf yolu, dünyəviləşmə və modernləşmə xalqımızın müharibə anlayışına, ilk növbədə Rusiyada, eyni zamanda Qərbdə formalaşmış konsepsiyalar çərçivəsində yanaşmasına səbəb olmuşdur.

Maraqlıdır ki, tədqiqatçılar göstərirlər ki, Qərb mədəniyyətindən heç də uzaq olmayan rus hərbi intellektual tarixində müharibə sözü vasitə və alətdən daha böyük məna kəsb edərək sənət və incəsənət kimi qiymətləndirilir. 2019-cu ildə ABŞ-dəki Ceymstaun Fondunun nəşr etdiyi “Rusiyanın hərbi strategiyası və doktrinası” adlı kitabda Yanis Berzinsin göstərdiyi kimi, “uzunmüddətli hərbi akademik müzakirələrin nəticəsi olan Rusiyanın Yeni Nəsil Müharibə (YNM) konsepsiyasını Qərb konsepsiyalarına (hibrid müharibə) uyğunlaşdırmağa və bu prizmadan izah etməyə çalışmaq konseptual səhvdir ….. Rusiya ordusu tərəfindən müstəqil şəkildə işlənib hazırlanmış nəzəriyyəni başqa bir ölkədə hazırlanmış nəzəriyyə kimi təqdim etməyə çalışmaq metodoloji səhvdir. Bu (YNM), başqa bir mədəniyyətin düşüncə tərzini və müharibənin necə aparılmalı olduğuna dair strateji anlayışını əks etdirir” (15). Təsadüfi deyil ki, Rusiya Federasiyası Silahlı Qüvvələri Baş Qərargah rəisi, ordu generalı V.V. Gerasimovun fikrinə görə, müasir münaqişələrin transformasiyası hərbi (kinetik) və qeyri-hərbi (qeyri-kinetik) mübarizə növlərinin müharibənin ümumi nəticəsinə təsirində nisbətinin dəyişməsinə səbəb olub. Rusiya Baş Qərargahının 2017-ci il hesablamasına görə, belə bir nisbət qeyri-hərbi mübarizə növlərinin xeyrinə 1:4 təşkil edir (16).

Qərbin müharibələr haqqında dünyagörüşünün şəkilləndirilməsində mühüm rol oynamış, hələ də böyük təsirini saxlayan məşhur Prussiya hərbi nəzəriyyəçisi Karl fon Klauzevits özünün "Müharibə haqqında" traktatında göstərirdi ki, “müharibə, sadəcə, siyasi bir hadisə deyil, müharibə həm siyasətin davamı, həm də siyasətin başqa vasitələrlə davam etdirilməsi üçün real siyasi alətdir”. Yəni, Klauzevits müharibəyə dövlətlərin, siyasi qrupların ziddiyyətlərindən doğan, qarşı duran tərəflərin bir-birinə öz iradələrini və mövqelərini qəbul etdirmək üçün seçilən silahlı və zorakı vasitə, eyni zamanda münaqişənin mərhələlərindən biri kimi, dar çərçivədə tərif verirdi. Sun Dzının "Müharibə sənəti" traktatında isə müharibənin təbiətinin əhatəli tərifini axtararkən, biz Klauzevitsin "Müharibə haqqında" əsərindəki kimi, asanlıqla cavab tapa bilmirik. Sun Dzının müharibənin dəyişkən təbiətini vurğulaması aşağıdakı sitatda öz əksini tapır: “Su sabit bir formaya malik olmadığı kimi, müharibədə də sabit şərtlər yoxdur” (17).

Müharibənin Nyuton fizikası və ya “mexanika dünyagörüşü” prizmasından tərifinin konseptual problemləri

“Müharibə” sözünün dar mənasından çıxarılaraq geniş və məcazi mənalarda işlədilməsi təkcə KİV-lərin, siyasətçilərin və şərhçilərin populyar dildə istifadə etdikləri təsviri və bədii gücləndirmə cəhdləri ilə bağlı deyil. Bu həm də xüsusilə 1945-ci ildən sonra hərb elmində baş verən inqilabi yeniliklərin və ənənəvi strateji düşüncənin strukturunu dəyişdirməsi ilə bağlıdır. Belə ki, elmi-texniki tərəqqinin təsiri ilə kütləvi qırğın silahlarının vüsətlə inkişafı 1945-ci ildən sonra həm müharibələrin, həm də böyük dövlətlərin strateji düşüncəsini tamamilə dəyişməyə başladı. Bu isə o deməkdir ki, müasir müharibələri onun keçmiş tərifləri, ənənəvi strateji çərçivələri və “müharibə” sözünün hərfi mənası daxilində anlamaq mümkün deyil.

Müharibələrin dəyişən təbiəti mütəmadi olaraq Qərbdə müharibələrə nəzəri baxan dairələr, elmi müəsissələr və ekspertlər tərəfindən dəyərləndirilir. Buna misal kimi, 2017-ci ildə Böyük Britaniyanın Müdafiə Nazirliyinin İnkişaf, Konseptlər və Doktrina Mərkəzinin “Hibrid müharibələrin başa düşülməsi” adlı yazısında verilən fikirlər diqqətəlayiqdir: “Qərb əsasən instrumentalist, texniki, döyüş mərkəzli və kinetik müharibə anlayışında ilişib qaldığı halda, onun rəqibləri müharibəni keyfiyyətcə yenidən dəyişməklə məşğuldurlar” (18).

Qərbin müasir strateji düşüncəsində müharibələrin xarakterində baş verən dəyişikliklərə yeni yanaşmanın zəruriliyi və bu düşüncədə mühafizəkarlığın elmi-tarixi səbəbləri haqqında bəhs edən ən məşhur və mühüm əsərlərdən biri kimi, 1992-ci ildə ABŞ Ordusu Müharibə Kollecində (US Army War College) Stiven R. Mannın müəllifliyi ilə yazılmış “Xaos nəzəriyyəsi və Strateji sənət” adlı monoqrafiyanı göstərməliyik (19). ABŞ hərbçilərini və təhlükəsizlik ekspertlərini 1992-ci ildə müharibələrin xarakterində baş verən dəyişikliklərə yenidən baxmağa təhrik edən məqam o zaman çox böyük hərbi potensiala, nüvə başlıqlarına və dünyanın bütün qitələrində mübarizə aparmaq potensialına malik SSRİ kimi dövlətin qeyri-hərbi yolla Soyuq müharibədə məğlub olaraq dağılması oldu. Cozef Nay tərəfindən ilk dəfə məhz 1990-cı ildə məşhur “yumşaq güc” konsepsiyasının irəli sürülməsi də təsadüfi deyildi.

S.R. Mann yuxarıda adı çəkilən monoqrafiyasında göstərirdi ki, keçmişdə elmi inqilablar münaqişələri dəyişdirdiyinə görə, indi də baş verən elmi dəyişiklikləri Amerika strateqlərinin başa düşmələri vacibdir. Monoqrafiyada S. Mann qeyd edirdi ki, dünya insanlara həmişə mürəkkəb, qarışıq bir yer kimi görünüb və ona görə də biz hər şeyi məntiqli edəcək elmi çərçivələr axtarmışıq və axtarmaqdayıq. XVIII əsrdən başlayaraq xüsusilə müasir Qərb düşüncəsinə Nyuton fizikası nüfuz və təsir etmişdir ki, S. Mann bu cür dünyagörüşü həm də “mexanika dünyagörüşü” adlandırır. Monoqrafiyada müəllif Qərbin müharibələr haqqında dünyagörüşünü şəkilləndirən Klauzevitsin də şüuraltı olaraq “mexanika dünyagörüşü”nün təsirində olduğunu və bunu onun əsərində fizikadan alınan sürtünmə, kütlə, cazibə mərkəzləri və s. kimi anlayışlardan və terminlərdən geniş istifadə etməsində əksini tapmasına diqqəti çəkir (19). S.Mann göstərir ki, bu cür Nyuton və ya “mexanika dünyagörüşü” adlandırılan universal dünyagörüş növbəti əsrlərdə elmin bütün sahələrinə güclü təsir göstərmişdir. Bu paradiqma deterministikdir, xəttidir, cisimlərin və qüvvələrin proqnozlaşdırıla bilən qarşılıqlı təsiri ilə bağlıdır (19). Hətta psixoloqlar, sosioloqlar və ya iqtisadçılar elmi görünmək istədikləri zaman “Nyuton fizikasının” əsas anlayışlarına müraciət edirlər. Başqa elmlər klassik fizikanın mexaniki baxışlarını gerçəkliyin düzgün təsviri kimi qəbul etmiş və öz nəzəriyyələrini buna uyğun modelləşdirmişlər. Başqa sözlə, bu cür izahda hadisələrə və proseslərə təsir edən əsas bir neçə dəyişən götürülür, digərləri reduksionist yanaşma ilə gözardı edilir.

S.Manna görə, dünya mürəkkəbləşdikcə, ənənəvi nəzəriyyələr cəmiyyətdə baş verən hadisələri, xüsusilə müharibələri getdikcə daha az izah etməkdədir. Çünki müasir dünyada baş verən proseslər, xüsusilə münaqişələr bir neçə sadə dəyişənin qarşılıqlı təsiri ilə təsvir və ya izah edilə bilməyəcək qədər mürəkkəbdir. Hazırda ənənəvi nəzəriyyə ilə reallıq arasındakı həm hərbi, həm də milli strategiya səviyyəsində uçurum getdikcə dərinləşməkdədir. Xüsusilə, hərbi baxımdan, ötən əsrdə klassik strategiyaya uyğun gəlməyən bir sıra silah və döyüş üsulları işlənib hazırlanmışdır ki, bu da münaqişələrin xarakterini və miqyasını dəyişməkdədir. Müəllif bu baxımdan misal olaraq bioloji və nüvə silahları kimi yeni silahların hazırlanması ilə onların ənənəvi doktrinal çərçivəyə sığdırılmasının çətinliyini göstərmişdir. Ona görə də, S.Manna görə, elmi irəliləyişlər bizi sadə Nyuton anlayışlarından kənara çıxararaq, prosesləri, o cümlədən müharibələri riyaziyyat və fizika elmlərinin qovuşmasında olan Xaos nəzəriyyəsinin paradiqması ilə izah etməyə sövq etməkdədir. Çünki dinamik bir sistemdə insan siyasətinin bir çox subyektlərinin çox fərqli məqsəd və dəyərləri olduğu üçün dünya xaotik olmağa məhkumdur.

S.Mann göstərir ki, biz ənənəvi “mexanika dünyagörüşü” və ya Nyuton fizikası paradiqmasından çıxış edərək müharibələrə məhdud sayda faktorların, əsasən də hərbi, iqtisadi və siyasi amillərin qarşılıqlı təsiri kimi baxırıq. Mexanika paradiqması və ya dünyagörüşü bizi xarici amillərdə əsas dəyişikliklərin səbəblərini (məhdud sayda faktorları) axtarmağa təşviq edir. Ancaq daha geniş təhlillər bizi ətraf mühit, texnoloji inkişaf və sosial təzyiqlər kimi amilləri də nəzərdən keçirməyə sövq edir. Lakin bu siyahı belə, müasir beynəlxalq münasibətlərin tam mürəkkəbliyini çatdıra bilmir, biz müharibələri təhlil edərkən din və ideologiyanın, terror təşkilatları kimi qeyri-dövlət aktorlarının, qlobal korporasiyalar kimi dövlətlərüstü qurumların və fərdlərin rollarını və təsirlərini nəzərdən qaçıra bilmərik. Üstəlik, qlobal kommunikasiya vasitələrinin inkişafı genişləndikcə, iqtisadi qarşılıqlı asılılıq dərinləşdikcə və demokratiya yayıldıqca bütün bu sadalanan və sadalanmayan amillərin sayı və təsirləri həndəsi silsilə ilə artır.

Nəticədə isə qərarvermənin sürətlənən tempi vəziyyəti daha da çətinləşdirir. Beləliklə, beynəlxalq vəziyyətin düzgün başa düşülməsinə yaxınlaşdıqca, onun nə qədər qeyri-xətti olduğunu, hadisələri və prosesləri məhdud sayda dəyişənlərin köməyi ilə reduksionist yanaşma ilə təhlil etməyin mümkün olmadığını bir o qədər daha yaxşı anlayırıq.

S.Manna görə, fizikada olduğu kimi, ən kiçik, əhəmiyyətsiz görünən elementin və ya sürtünmənin böyük təsirləri ola bilər. Dünya tarixinin məşhur sərkərdələri də vaxtılə çox xırda və əhəmiyyətsiz görünən detalların müharibələrin taleyində həlledici rol oynaya bilmə potensialı haqqında fikirlər bildirmişlər. Məsələn, bu ifadənin Çingiz xan tərəfindən deyildiyi iddia edilir: “Heç vaxt bir mismarı belə kiçik görməyin: bir mismar bir nalı, bir nal bir atı, bir at bir sərkərdəni, bir sərkərdə bir ordunu, bir ordu da böyük bir ölkəni xilas edir.” Klauzevits isə deyirdi ki, “müharibədə hər şey çox sadədir, lakin ən sadə şey mürəkkəbdir”. “Mexanika dünyagörüşü” ilə müharibəyə yanaşan, müharibəni ancaq döyüş meydanında və kinetik vasitələrlə nəzərdən keçirən Klauzevits də ilk baxışda əhəmiyyətsiz görünən faktorların müharibənin taleyini qeyri-müəyyən edə bilmə potensialını “müharibə dumanı” (fog of war) kimi adlandıraraq əhəmiyyətini vurğulamışdı.

Yuxarıda göstərilənləri nəzərə alaraq S.Mann qeyd edir ki, məhdud sayda dəyişənlərə əsaslanan mexanika dünyagörüşündən fərqli olaraq xaos nəzəriyyəsi gələcəklə bağlı uzunmüddətli proqnozların verilməsinin daha çətin olduğunu deyir və ona görə də bu nəzəriyyə uzunmüddətli proqnozlar verərkən ehtiyatlı olmalı olduğumuzu tövsiyə edir.

S.Mann təklif etdiyi sistem yanaşmasının strukturunda[*] öz əksini tapan ayrı-ayrı aktorların “münaqişə enerjisinə” (conflict energy) xüsusi diqqət yetirir. S. Mann göstərir ki, beynəlxalq sistemdə bu enerji, istər hökumətlər, istər siyasi və ya dini hərəkatlar, istərsə də fərdlər kimi konkret iştirakçıların (aktorların) motivlərindən, dəyərlərindən və imkanlarından qaynaqlanır. Bu aktorlar status-kvonu dinc və ya zorakı vasitələrlə dəyişməyə cəhd edə bilərlər, lakin istənilən halda aktorlar bu cür fəaliyyətləri ilə status-kvonu qaçılmaz olaraq nizam dəyişikliyi dövrünə yaxınlaşdırırlar. Struktur təhlilində daha alt qata və ya molekulyar, yəni fərdlər səviyyəsinə enərək müəllif göstərir ki, insanlar qlobal strukturların əsas tikinti bloku olduğu kimi, münaqişə enerjilərini də özlərində daşıyırlar. Başqa sözlə, münaqişə enerjisi fərdi aktorun məqsədlərini, qavrayışlarını və dəyərlərini əks etdirir ki, bu da əslində, iştirakçıların hər birinin proqramlaşdırıldığı ideoloji proqramdır. Daha sonra, S. Mann insanlar arasında münaqişə enerjisini dəyişdirmək - onu azaltmaq və ya ABŞ-ın milli təhlükəsizlik məqsədlərinə uyğun istiqamətə yönəltmək üçün - proqram təminatını dəyişdirməlisinin zəruriliyini göstərir. S.Mann hakerlərin təcrübəsinə müraciət edərək göstərir ki, proqram təminatını dəyişdirməyin ən aqressiv yolu “virus”dur və insan proqram təminatı virusunun başqa adı isə ideologiyadır.

Daha sonra S.Mann bu ideoloji virusdan silah kimi istifadə etməyi, hədəf əhalini demokratik plüralizm və fərdi insan hüquqlarına hörmət ideologiyaları ilə yoluxdurulmasını ABŞ-nin əsas milli təhlükəsizlik strategiyasının əsas məqsədi olmasını tövsiyə edir. Müəllif ideoloji yoluxdurmanı nəzərdə tutan bu müharibəni məcazi mənada “bioloji müharibə” adlandırır. S. Mann gələcəkdə ABŞ-nin səylərini bu ölkə ilə maraqları ziddiyyət təşkil edən ölkələrin və mədəniyyətlərin şüurunu qazanmağa yönəltməklə bu ölkənin milli təhlükəsizliyinin ən yaxşı şəkildə təmin olunacağına inamını göstərmişdi. Müəllifə görə, kütləvi informasiya texnologiyaları sahəsində irəliləyişlər və artan qlobal səyahət asanlığı Amerika ideallarının virus kimi çoxalacağına və xaotik şəkildə yayılacağına imkan verəcək.

Müharibələrin dəyişən təbiətində növbəti mərhələ və Xaos nəzəriyyəsinin prizmasından yeni konseptual çərçivələr axtarışı

2000-ci illərdən sonra baş verən müharibələr akademik və ekspert dairələrində elmi-nəzəri müzakirələri daha da alovlandırdı. Bu mənada F.G.Hoffman 2007-ci ildə yazdığı “21-ci əsrdə münaqişə: Hibrid müharibənin yüksəlişi” adlı monoqrafiyası ilə müasir müharibələrin və münaqişələrin dəyişən təbiəti ilə maraqlanan təhlükəsizlik sahəsində ekspertlərin, eləcə də daha geniş auditoriyanın diqqətini cəlb etdi. Özünün də etiraf etdiyi kimi, bu monoqrafiyanı yazmağa müəllifi 2001-ci il 11 sentyabrdan sonra ABŞ-nin Əfqanıstan və İraqa müdaxilədən sonra bu ölkədə “Uzun Müharibələr” (The Long War) adlandırılan apardığı müharibələr, ən əsas isə 2007-ci ildə İsrailin Hizbullahla qarşıdurması, Çeçenistan müharibəsi və Somalidəki münaqişə təhrik etmişdi (20). Eləcə də, 1990-cı illərdən Çinin “qeyri-məhdud müharibə” (unrestricted warfare) konsepsiyasını irəli sürməsi bu cür müzakirələri təşviq edən mühüm səbəblərdən idi.

[*] Müəllifə görə həmin struktur bu cürdür: sistemin ilkin forması; sistemin əsasında duran struktur; aktorlar arasında əlaqənin forması və ya xarakteri; ayrı-ayrı aktorların münaqişə enerjisi.

Bəhs edilən monoqrafiya ilə yanaşı, bu dövrdə ABŞ-də digər təhlükəsizlik üzrə mütəxəssislərin ənənəvi hərbi gücə malik olan ABŞ-nin qeyri-nizami hərbi birləşmələrlə və terror təşkilatları ilə, eləcə də Əfqanıstana, İraqa və Liviyaya hərbi müdaxilə zamanı apardığı müharibələrdə qarşılaşdıqları uğursuzluqların səbəblərini izah etməyə, silahlı münaqişələrin dəyişən təbiətinə, yeni şəraitə uyğun silahlı qüvvələrin və təhlükəsizlik orqanlarının fəaliyyətinin necə qurulmasına dair tövsiyələri əks etdirən çoxsaylı elmi əsərləri, məqalələri və kitabları da nəşr edildi.

Hoffman yuxarıda bəhs edilən monoqrafiyasında göstərirdi ki, 2006-cı ildə İsrailin Hizbullahla münaqişədə uğursuzluğu təkcə İsrailin uğursuzluğu deyildi, həm də Qərb hərb nəzəriyyəsinin və doktrinalarının uğursuzluğu idi. Monoqrafiyada həmin müharibənin timsalında ənənəvi dövlət ordusu ilə gerilla və ya partizan qruplaşmaları arasında qarşıdurmaların hansı keyfiyyət dəyişikliyinə məruz qaldığını, ənənəvi, hərbi baxımdan hər şeydə üstün olan ordulara qarşı necə effektiv vasitəyə çevrildiyini göstərir (21).

Hoffman hibrid təhdidləri “müharibənin müxtəlif formalarını, o cümlədən ənənəvi/nizami silahlı qüvvələri, qeyri-nizami taktika və qrupları, terror aktlarını... və cinayət xaosunu özündə birləşdirərək” sinerji effekti əldə etmək üçün yönləndirilən koordinasiya olunan bir fenomen kimi tərif etdi. Hoffmanın bu monoqrafiyası hibrid müharibənin vahid bir strategiya çərçivəsində kinetik və qeyri-kinetik metodların qarışdırılması şəklində təsbit etdi.

2014-cü ildə Rusiyanın ilk dəfə Ukraynaya müdaxiləsindən sonra hibrid müharibə söz birləşməsi Hoffmanın verdiyi tərifin orijinal konseptual çərçivələrindən çıxarılaraq mübahisəli və populyar bir anlayış kimi yenidən meydana atıldı. London Kral Kollecinin professoru Ofer Fridman Oksford Universitetində 2018-ci ildə nəşr etdiyi “Rusiyanın “hibrid müharibəsi: intibahı və siyasiləşdirilməsi” kitabında göstərir ki, “hibrid müharibə” anlayışı həm Qərbdə, həm də Rusiyada siyasiləşdirilib. Həmin kitabda müəllif göstərir ki, başlanğıcda müasir münaqişələrin mahiyyətini daha yaxşı başa düşmək üçün təklif edilən “hibrid müharibə” söz birləşməsi və ya konsepsiyasının özü Rusiyada və Qərbdə daxili siyasətdə ictimai rəyə təsir, xarici siyasətdə isə təbliğat mübarizə alətinə və ya silaha (weaponised) çevrildi (22).

Oksford Universiteti tərəfindən nəşr edilən Beynəlxalq Əlaqələr jurnalında ABŞ Hərbi Akademiyasının professoru Robert Person, İsak Kulalic və Con Maylenin müəllifli olduğu “Gələcəyə qayıdış: hibrid müharibənin davamlı problemləri” adlı məqalədə də hibrid müharibə anlayışının tərifinin bu sahədə yazılan məqalələrin müəlliflərinin sayı qədər olması problemini göstərərək, bu anlayışın alimlər və bu sahədə çalışanların hamı tərəfindən qəbul edilən tərifinin müəyyən edilməsinin zəruriliyini göstərirlər(23). Müəlliflər göstərirlər ki, ən problemli olan məqam hibrid müharibəyə verilən çoxsaylı tərif lər arasında əhatə dairəsinin geniş dəyişkənliyidir, onların arasında ən geniş olanı “hibrid müharibə” çətiri altında demək olar ki, istənilən pozucu siyasət hərəkətini və ya nəticəni əhatə edir. Ona görə də, müəlliflər belə nəticəyə gəlirlər: əgər hər şey hibrid müharibədirsə, onda “hibrid müharibə” termini heç bir məna daşımır.

2024-cü ildə hibrid müharibə haqqında fərqli, sistemsiz və dağınıq şərhlərin yaratdığı intellektual çaşqınlığa son qoymaq, mövzuya konseptual aydınlıq və akademik yanaşmanı gətirmək üçün NATO bir qrup alimi toplayaraq “Hibrid Təhdidlər və Hibrid müharibə: İstinad Kurikulumu” adlı sənəd hazırladı. Bu Kurikulum (HTHWRC) NATO-nun Müdafiə Akademiyaları və Təhlükəsizlik Tədqiqatları İnstitut-larının Sülh Naminə Tərəfdaşlıq Konsorsiumu və onun Yeni Təhlükəsizlik Çağırışları İşçi Qrupunun himayəsi altında bir araya gətirilən çoxmillətli könüllülərin birgə komandası tərəfindən hazırlandı (24). İstinad kurikulumu bir sıra tərəfdaş ölkələrdən nümayəndə sayılan alimlərin konsensus baxışlarını təmsil etməkdə səlahiyyətli olduğunu iddia etmişdi. Bununla belə, sənəd qeyd etdi ki, ‘Yekun sənəd *yalnız bəzi razılaşdırılmış elementləri, məsələləri və mövzuları* vurğulamaqla məcburi xarakter daşıyır’ (24). İşçi qrupun uzun konseptual müzakirələr və mübahisələrdən sonra yekun sənəddə gəldiyi qənaət o oldu ki, ‘nə hibrid müharibə, nə də hibrid təhdidlər üçün vahid qəbul edilmiş tərif mövcud deyil’ və sənədin məqsədi üçün yalnız “işçi tərifi” təklif edir (24).

Beləliklə, biz “müharibə” sözünün fərqli mədəniyyətlərdə və dillərdə tarixən müxtəlif cür izah edilməsinin və qavranılmasının, müasir dünyamızda bu sözün təkcə ictimai müzakirələrdə deyil, akademik dairələrdə də müxtəlif kontekslərdə istifadə edilməsinə təsir edən amillərdən biri olduğu qənaətinə gəlirik (25). Hazırda KİV-lərdəki şərhlərdə, eləcə də siyasətçilərin bəyanatlarında “müharibə” sözünün əvvəlinə müxtəlif təsviredici və gücləndirici təyinlər əlavə etməklə, o sanki hərfi, klassik və ya ənənəvi mənasından çıxarılaraq məcazi mənalarda tərəflər arasında qarşıdurmanın kəskinliyinin

səviyyəsini göstərən söz və ritorik vasitə kimi işlədilir. “Müharibə” sözünün klassik və ənənəvi mənasının deformasiya edilməsinə misal olaraq “soyuq müharibə”, “ticarət müharibəsi”, “informasiya müharibəsi”, “boz zona müharibəsi”, “vəkalət müharibəsi”, “kiber müharibə” və s. kimi söz birləşmələrini göstərə bilərik.

Tanınmış britaniyalı tarixçi və Rusiyanın hibrid müharibə potensialı üzrə mütəxəssis Mark Qaleottinin 2022-ci ildə nəşr edilmiş “Hər şeyi silaha çevirmək: Müharibə aparmağın yeni yoluna dair bələdçi” adlı kitabında ənənəvi müharibə formalarının bir sıra qeyri-ənənəvi üsullarla necə əvəz edildiyini və ya, ən azı, əlavə edildiyini təsvir edir (26). Daha sonra Qaleotti göstərir ki, müharibə kiberhücumlardan və dezinformasiya kampaniyalarından tutmuş iqtisadi sanksiyalara və mədəni manipulyasiyalara qədər geniş sahələri əhatə edir, yəni, müharibə artıq döyüş meydanları ilə məhdudlaşmır, müasir həyatın bütün sahələrinə nüfuz edir və buna görə də müharibə və sülh arasındakı sərhədlər demək olar ki, seçilməz hala gəlir. Qaleottinin kitabı müasir münaqişələrin qansız, lakin dağıdıcı üsullarla necə aparıldığını göstərən nümunə ilə - elektrik şəbəkələrinin sındırılması və gizli kiber əməliyyatlarla açılır. Müəllif göstərir ki, bu üsullar ənənəvi silahlı toqquşmalarla müqayisədə daha az nəzərəçarpan olsa da, cəmiyyətlərdə sabitliyi pozmaq və institutlara inamı sarsıtmaq üçün bəzən daha çox imkana malikdir. Beləliklə, Qaleottinin məşhur kitabının əsas ideyası müasir müharibələrin “döyüş meydanından kənarda müharibə” və ya “silahlı qarşıdurmasız müharibə” olmasıdır.

Nəticə

Siyasətçilərin çıxışlarında olduğu kimi, strateji sənədlərdə də dəqiq, konseptual çərçivələri göstərilən tərif olmadan “müharibə”, son illərdə isə “hibrid müharibə” ifadəsindən geniş istifadə edilməsi təkcə mövzu ilə bağlı məşğul olan alimlər üçün intellektual problem yaratmır, bu həm milli, həm də beynəlxalq səviyyədə siyasətlərin hazırlanması və həyata keçirilməsi üçün praktiki maneədir. Digər tərəfdən xüsusilə hibrid müharibə ətrafında son intellektual müzakirələr və hamının qəbul edəcəyi tərifin axtarışları, ilk növbədə, ənənəvi hərbi strategiyaların və planlaşdırmanın müasir münaqişələrin ehtiyacları üçün köhnəlmiş hala gəldiyi həqiqətinin dərk edilməsindən qaynaqlanır. Münaqişələrin təbiəti və xarakteri mürəkkəbləşdikcə, siyasətçilər və müdafiə siyasətini planlaşdıranlar üçün effektiv müdafiə strategiyaları və büdcələri hazırlamaq çətinləşir. Belə ki, müasir milli müdafiə büdcələrini “hər şeyin silaha çevrildiyi” dağıdıcı vasitələrin getdikcə daha çox istifadə edildiyi dövrdə birbaşa hərbi xərcləri – məsələn, tanklar, güllələr, infrastruktur, təchizat xərcləri və şəxsi heyətin maaşları əsasında qurmaq mümkün deyil.

Təsadüfi deyil ki, hələ 2010-cu il 8 iyunda təsdiq edilmiş Azərbaycan Respublikasının Hərbi doktrinasının Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin hərbi-strateji əsaslarına dair 5-ci bəndində “gələcək silahlı münaqişələrin xarakterinin əsaslı surətdə dəyişdiyi” və “müharibə aparmağın keyfiyyətcə fərqli fəlsəfəsinin meydana gəlməsi” vurğulanaraq “döyüş meydanı” anlayışının tədricən “vahid informasiya məkanı” və “döyüş məkanı” anlayışları ilə əvəz edilməsi məsələsi diqqətə çatdırılırdı (27). Bu dəyişikliklər yalnız fiziki sağqalmanı deyil, həm də kimliyin sabitliyi və varlığın davamlılığını ehtiva edən daha geniş təhlükəsizlik anlayışını və konsepsiyalarını zəruriliyini vurğulayırdı. Biz, Azərbaycan Respublikasının digər hərbi və təhlükəsizlik sahəsində qanunvericiliyi və doktrinal sənədlərində də milli maraqların və milli təhlükəsizliyin obyektlərinin fiziki ölçüləri ilə yanaşı, milli təhlükəsizliyə subyektiv səviyyədə təsir edən ölçülərə (mənəvi dəyərlər, hüquq və azadlıqlar) verilən əhəmiyyətə diqqətin çəkildiyini görürük. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il iyunun 29-da imzaladığı Milli təhlükəsizlik haqqında Qanun Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektləri kimi, insanın hüquq və azadlıqlarını, cəmiyyətin maddi və mənəvi dəyərlərini və dövlətin müstəqilliyini, suverenliyini, konstitusiya quruluşunu və ərazi bütövlüyünü özündə ehtiva edir (28).

İstifadə olunmuş ədəbiyyat

1. Moseley A. The Philosophy of War // Internet Encyclopedia of Philosophy. – 2020. – URL: https://iep.utm.edu/war/ (müraciət tarixi: 20.05.2026).

2. Cox R. Approaches to pre-modern war and ethics: some comparative and multi-disciplinary perspectives // Global Intellectual History. – 2018. – Vol. 3, No. 4. – p. 592–613. – DOI: 10.1080/23801883.2018.1527709.

3. Dinstein Y. War, Aggression and Self-Defence. – 5th ed. – Cambridge: Cambridge University Press, 2011. – 382 p.

4. Bosio N. What Is War? Defining War, Conflict and Competition // Australian Army Research Centre. – March 5, 2020. – URL: https://researchcentre.army.gov.au/library/land-power-forum/what-war-defining-war-conflict-and-competition (müraciət tarixi: 20.05.2026).

5. Schu A. What is war? A reinterpretation of Carl von Clausewitz’s “formula” // Revue française de science politique. – 2017. – Vol. 67, No. 2. – p. 291–311. – URL: https://shs.cairn.info/article/E_RFSP_672_0291?lang=en (müraciət tarixi: 20.05.2026).

6. Kaldor M. New and Old Wars: Organised Violence in a Global Era. – 3rd ed. – Cambridge: Polity Press, 2012. – 240 p. (İstisnadən, yalnız istinad edilən konkret səhifə üçün: – p. 15).

7. Collier D., Mahon J. E. Conceptual “Stretching” Revisited: Adapting Categories in Comparative Analysis // The American Political Science Review. – 1993. – Vol. 87, No. 4. – p. 845–855. – URL: https://escholarship.org/uc/item/0ps3z02q (müraciət tarixi: 20.05.2026).

8. Zaytsev D. G. et al. Searching for coherence in a fragmented field: Temporal and keywords network analysis in political science // Network Science. – 2023. – Vol. 11, No. 1. – p. 113–142. – DOI: 10.1017/nws.2022.39.

9. Trent J. E. Should Political Science be More Relevant? An Empirical and Critical Analysis of the Discipline // European Political Science. – 2011. – Vol. 10, No. 2. – p. 191–209. – URL: https://link.springer.com/article/10.1057/eps.2010.65 (accessed: 20.05.2026). *(Qeyd: Jurnalın rəsmi nəşr ili, cild/nömrə və səhifə intervalı dəqiqləşdirilib).*

10. Almond G. A. A Discipline Divided: Schools and Sects in Political Science. – Newbury Park: Sage Publications, 1990. – 348 p. *(Haşiyə üçün: – p. 13).*

11. Acharya A., Buzan B. Why is there no non-Western international relations theory? An introduction / Non-Western International Relations Theory: Perspectives on and beyond Asia / eds. A. Acharya, B. Buzan. – London: Routledge, 2010. – p. 1–22.

12. Keegan J. A history of warfare. – New York: Vintage Books, 1994. – 463 p. *(Haşiyə üçün: – p. 463).*

13. Juergensmeyer M. Terror in the mind of God: The global rise of religious violence. – Berkeley: University of California Press, 2000. – 316 p. *(Haşiyə üçün: – p. 153).*

14. Handel M. I. Sun Tzu and Clausewitz: The Art of War and On War Compared. – Carlisle: Strategic Studies Institute, U.S. Army War College, 1991. – p. 27–31. – URL: https://apps.dtic.mil-/sti/pdfs/ADA239084.pdf (accessed: 20.05.2026).

15. Bērziņš J. Not ‘Hybrid’ but New Generation Warfare / Russia's military strategy and doctrine / eds. G. E. Howard, M. Czekaj. – Washington, DC: The Jamestown Foundation, 2019. – p. 158.

16. Бартош А. «Трение» и «износ» гибридной войны [Электронный ресурс] // Военная мысль. – 2018. – № 1. – С. 5–12. – URL: https://cyberleninka.ru/article/n/trenie-i-iznos-gibridnoy-voyny (дата обращения: 20.05.2026).

17. Sun Tzu. The Art of War / ed. J. Clavell. – New York: Delacorte Press, 1983. – p. 22.

18. Reichborn-Kjennerud E., Cullen P. Understanding Hybrid Warfare // MCDC Countering Hybrid Warfare Project: Information note. – January 2017. – URL: https://assets.publishing.service.-gov.uk/media/5b2904aded915d2cd5d01bfd/MCDC_CHW_Information_Note-Understanding_Hybrid_Warfare-Jan_2018.pdf (müraciət tarixi: 20.05.2026).

19. Mann S. R. Chaos Theory and Strategic Art // The US Army War College Quarterly: Parameters. – 1992. – Vol. 22, No. 1. – Art. 19. – URL: https://press.armywarcollege.edu/parameters-/vol22/iss1/19/ (müraciət tarixi: 20.05.2026).

20. Pernin C. G. et al. Unfolding the Future of the Long War: Motivations, Prospects, and Implications for the U.S. Army. – Santa Monica: RAND Corporation, 2008. – p. 5–22. – URL: [suspicious link removed] (müraciət tarixi: 20.05.2026).

21. Hoffman F. G. Conflict in the 21st century: The rise of hybrid wars. – Arlington: Potomac Institute for Policy Studies, 2007. – p. 9.

22. Fridman O. Russian ‘Hybrid Warfare’: Resurgence and Politicisation. – Oxford: Oxford University Press, 2018. – p. 128–131. *(Qeyd: Kitabın rəsmi nəşr ili əlavə edilib).*

23. Person R., Kulalic I., Mayle J. Back to the future: the persistent problems of hybrid war // International Affairs. – 2024. – Vol. 100, Is. 4 (iiae131). – URL: https://academic.oup.com/ia/advance-article/doi/10.1093/ia/iiae131/7685798 (müraciət tarixi: 20.05.2026).

24. The Hybrid Threats and Hybrid Warfare Reference Curriculum (HTHWRC) / The Partnership for Peace Consortium of Defence Academies and Security Studies Institutes (PfPC) and The Emerging Security Challenges Working Group. – Brussels: NATO Headquarters, 2024. – p. 1–76. – URL: https://www.pfp-consortium.org/news/new-hybrid-warfare-reference-curriculum-released-nato-and-pfpc (müraciət tarixi: 20.05.2026)

25. Herberg-Rothe A. Primacy of “Politics” or “Culture” Over War in a Modern World: Clausewitz Needs a Sophisticated Interpretation // Defense Analysis. – 2001. – Vol. 17, No. 2. – p. 175–186. – DOI: 10.1080/07430170120064249.

26. Galeotti M. The Weaponisation of Everything: A Field Guide to the New Way of War. – New Haven: Yale University Press, 2022. – 248 p.

27. Azərbaycan Respublikasının Hərbi doktrinası //2010-cu il 8 iyun tarixində qəbul edilmişdir. -Bakı: Qanun, 1029-IIIQR, 2010.

28. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu // 29 iyun 2004-cü ildə qəbul edilmişdir. -Bakı: Qanun, № 712-IIQ, 2004.

Rəyçi: f.f.d, dos. Zeynəddin Şabanov